**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ÇAR RUSİYASININ QAFQAZDA İSLAM SİYASƏTİ

İxtisas: 7214.01 - Dinin tarixi və fəlsəfəsi

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Rəşad Eldar oğlu Cabarov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: AMEA-nın həqiqi üzvü
**Vasim Məmmədəli oğlu Məmmədəliyev**

tarix elmləri doktoru, professor
**İradə Mehtiqulu qızı Hüseynova**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Allahşükür Hümmət oğlu Paşazadə**

fəlsəfə elmləri doktoru, professor
**Rəna Rza qızı Mirzəzadə**

fəlsəfə üzrə fəlsəfə doktoru
**Taleh Elton oğlu Hacıyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 4.03 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: fəlsəfə elmləri doktoru, dosent
**Zəkiyyə Ağababa qızı Əbilova**

Dissertasiya şurasının elmi katibi: ilahiyyat üzrə fəlsəfə doktoru, dosent
**Məmmədəli Allahverdi oğlu Babaşlı**

Elmi seminarın sədri: fəlsəfə elmləri doktoru, professor
**Sakit Yəhya oğlu Hüseynov**

# DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dini siyasətin həyata keçirilməsi daim öz ərazilərini genişləndirmək və geniş coğrafi məkanda hakimiyyətini bərqərar etmək niyyətində olan böyük dövlətlərin regional siyasətinin mühüm komponentlərindən biri olmuşdur. Bu mənada Rusiya imperiyası özünün XVIII əsrdən etibarən Qafqazda həyata keçirməyə başladığı işğalçılıq siyasəti ilə seçilir. Bu regionda yaşayan xalqların dini və milli hüquqları Rusiyanın Qafqazı işğal etməyə başladığı və bu istiqamətdə fəaliyyətini tamamladığı dövrlərdə davamlı olaraq pozulmuşdur.

Rusiyanın müsəlman dünyasına ekspansiyası XVI əsrin ortalarından başlayaraq XIX əsrin sonuna qədər davam etmiş və bu proseslərin nəticəsində Volqaboyu ərazilər, Krım, Sibir, Qafqaz və Orta Asiya işğal edilmişdir. Bu ərazilərdə yaşayan əhali artıq öz dini inancını tarixi ənənələri əsasında deyil, Rusiya dövlətinin hökmü ilə həyata keçirmək məcburiyyətində qalmışdır. Rusiya imperiyası Qafqazın müxtəlif etnik qruplardan ibarət xristian əhalisi ilə isə himayədarlıq siyasəti yürütmüş, erməni kilsəsi ilə sıx əlaqələr qurmuşdur. Erməni əhalisinin Cənubi Qafqaz ərazisinə köçürülməsi prosesində erməni kilsəsinin nümayəndələrinin mühüm rol oynadıqları təkzibolunmaz tarixi faktdır.

Mövzunun öyrənilməsini aktuallaşdıran səbəblərdən biri də Rusiyanın hazırda yenə də regional, qlobal və lokal proseslərdə oynadığı roldur. Bu gün Rusiyada yaşayan milyonlarla müsəlmanın müəyyən qismini Şimali Qafqazda yaşayan əhali təşkil edir. SSRİ-nin süqutundan sonra Rusiya daxilində mərkəzi hakimiyyətə qarşı etirazların böyük əksəriyyəti özünü məhz Şimali Qafqazda, xüsusilə də hərbi formada göstərmiş oldu. SSRİ dövründə deportasiya və diskriminasiyaya məruz qalmış Qafqaz xalqlarında milli şüurun oyanışı müşahidə edilməyə başladı və bu qaçılmaz prosesdə xüsusi rol islam dininə məxsus idi.

Rusiya hakimiyyəti eynilə XVIII-XIX əsrlərdə olduğu kimi, müasir dövrdə də Şimali Qafqazda nəzarəti ələ keçirmək üçün dini siyasətində bəzi məqamları ilə diqqəti cəlb edir. Son dövrdə baş vermiş hadisələr Rusiyanın Dağıstan və Çeçenistan xalqları arasında milli zəmində deyil, həm də dini zəmində yaranan

ziddiyyətlərdən ciddi şəkildə istifadə edə bildiyini nümayiş etdirmişdir. Rusiyanın Qafqazda dini siyasətinin öyrənilməsi həm tarixi, həm fəlsəfi, həm də siyasi nöqteyi-nəzərədən olduqca önəmlidir. Qeyd edilməlidir ki, Azərbaycan 1991-ci ildən bu günə kimi Rusiya ilə dəyişən münasibətlərə malik olmuşdur. 1991-1993-cü illərdə Rusiya ilə münasibətlərdə yaşanmış problemlər, eləcə də məlum hadisələrdə Rusiyanın açıq və ya gizli şəkildə Ermənistanı dəstəkləməsi öz sözünü demişdir.

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanın Rusiya siyasətində ciddi dəyşikliklər baş vermiş oldu. Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində artıq Rusiya tam birmənalı olaraq Ermənistanın yanında yer almadı. Doğrudur, müəyyən dövrlərdə Rusiyanın xarici siyasətində erməni təsiri özünü göstərirdi. Amma bunun da fəsadları dahi şəxsiyyətin uzaqgörən siyasəti nəticəsində aradan qaldırıldı. Heydər Əliyev çox dəqiq bilirdi ki, Şimali Qafqaz xalqlarını və Azərbaycan xalqını bir-biri ilə bağlayan əsas amil islamdır.

Ümummilli lider xalqımızın həyatında mühüm rol oynayan, mütərəqqi din olan islamın mahiyyətini daim vurğulamış, məhz islam dəyərlərinə bağlılığın ölkədə ruslaşdırma siyasətinə qarşı müqavimətə zəmin yaratdığını, azərbaycanlıların milli xarakterinin qorunmasına yardımçı olduğunu qeyd etmişdir. Qafqaz xalqlarının tarixində mühüm yer tutan Şeyx Şamilin 200 illik yubileyi ilə bağlı imzaladığı sərəncamda Heydər Əliyev azadlıq uğrunda mübarizə simvoluna çevrilmiş Şeyx Şamil şəxsiyyətinin müstəqil Azərbaycan Respublikasının vətəndaşlarında tarixi keçmişə düzgün münasibət, vətənə sədaqət hisslərinin formalaşmasında xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamış[1], alimlərimizin bu tarixi şəxsiyyətlə bağlı geniş araşdırmalar apardığını qeyd etmişdir.[2]

Rusiyanın Qafqaz ölkələri ilə münasibətlərinin tarixinin, onun siyasi gedişlərinin və bu gedişlərdə din amilinin öyrənilməsi hər

---

[1] Şeyx Şamilin 200 illik yubileyi haqqında Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı: [Elektron resurs] / URL: https://e-qanun.az/framework/3806.

[2] Əliyev, H. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar): [46 cilddə] / H.Əliyev – Bakı: Azərnəşr, – c.13. – 1998, – s.141.

zaman aktualdır. Müasir dövrdə yaşanan hadisələr tədqiqat mövzusunun aktuallığını bir daha sübuta yetirir.

Milli tarixşünaslığımızda tədqiq edilən mövzunun əsasən bir hissəsi, yəni Azərbaycanın Rusiya tərəfindən işğalı ilə bağlı məsələlər daha çox öz əksini tapmış, sovet dövrü ədəbiyyatlarında bu məsələyə münasibət siyasi amillərin təsiri altında olmuşdur. Hadisələr Azərbaycanın, o cümlədən Qafqazın Rusiya tərəfindən işğalı kimi deyil, Rusiya ilə birləşdirilməsi kimi təqdim edilmişdir.[3]

Məsələnin bu şəkildə təqdim edilməsi tarixi prosesi tam həqiqəti ilə əks etdirmir. Belə ki, Azərbaycan Rusiyaya birləşməmiş, Rusiya onu birbaşa işğalçılıq müharibəsi ilə özünə tabe etmişdir.

Bir sıra tədqiqatlarda Şimali Qafqaz xalqlarının azadlıq hərəkatının Cənubi Qafqaz, Azərbaycan və Gürcüstan xalqlarının mübarizəsinə ciddi təsir göstərdiyi,[4] Rusiyanın Azərbaycanı işğal etməklə və Qərbi Azərbaycan torpaqlarında “Erməni vilayəti” yaratmaqla bu bölgədə gələcək erməni dövlətinin əsasını qoyduğu qeyd olunur.[5]

Rusiya imperiyasının Şimali Qafqazla bağlı siyasəti bir sıra alimlərin - akademik Z.Bünyadovun,[6] R.Aslanovanın,[7] V.Quliyevın,[8]

---

[3] Мустафаев, Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII-начало XIX вв.) / Дж.М.Мустафаев. – Баку: Элм, – 1989. – 128 с.; Ибрагимбейли, Х. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории) / Х.Ибрагимбейли. – Москва: Наука, Главная редакция восточной литературы, – 1969.

[4] Алиева, С.И. Азербайджан и народы Северного Кавказа (XVIII – начало XXI вв.). – Баку: Şərq-Qərb, – 2010, – s.198.

[5] Mahmudov, Y.M. Azərbaycanlılar (etnik-siyasi tarixə ümumi baxış). – Bakı: Aspoliqraf, – 2008, – 64 s.

[6] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1985, – 336 s.

[7] Aslanova, R. Qloballaşma və mədəni müxtəliflik /R.Aslanova. – Bakı: Elm, – 2004. – 264 s.

[8] Кулиева, В.А. Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX-начале XX в. / В.А. Кулиева. – Баку: Элм, – 1999. – 64 с.; ее же. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в XIX - начале XX вв. / В.А. Кулиева. – Баку, – 2003. – 240 с.

İ.Əliyevanın,[9] Ə.F.Məmmədovun,[10] F.Ağayevin,[11] A.Balayevin,[12] T.Svetaxovskinin [13] elmi araşdırmalarında öz əksini tapmışdır. Tədqiqat aparıldığı müddətdə elmi dövriyyəyə daxil edilmiş mühüm əsərlərdən biri də İ.Hüseynovanın "Qafqaz xalqlarının tarixi" əsəridir.[14] Müəllif əsrlər boyu dünya mədəniyyəti, elmi və təhsili xəzinəsinə mühüm töhfələr vermiş Qafqaz xalqlarının nailiyyətlərinin, ilk növbədə, onların öz zəhmətlərinin nəticəsi olduğunu vurğulayır və müxtəlif yaşayış şəraiti və inkişaf tempinə, Qafqaz birliyinə daxil olan xalqları bir-birindən ayıran uzaq məsafələrə baxmayaraq, onları bir çox tellərin birləşdirdiyini qeyd edir. Müəllifin bundan öncə, 2010-cu ildə çapdan çıxmış "Qafqaz xalqlarının ensiklopediyası" da xüsusi əhəmiyyətə malikdir.[15]

Tədqiqatın gedişində xarici ölkə müəlliflərinin də əsərləri öyrənilmiş, onlardan əldə edilmiş məlumat araşdırmalara cəlb olunmuşdur. Bunlardan Ahmet Akmazın Qafqazda müridizmin inkişafına həsr edilmiş,[16] Selim Deringilin Rusiyanın Qafqazdakı soyqırım siyasətinə və bunun nəticəsində əhalinin Osmanlıya köçü-

---

[9] Əliyeva, İ. İngiloyların çar Rusiyasının pravoslavlaşdırma siyasətinə qarşı mübarizəsi // – Bakı: AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, – 2007. – s.131-137.

[10] Məmmədov, Ə.F. Şimal-Qərbi Azərbaycan: Zaqatala dairəsi / Ə.F.Məmmədov. – Bakı: Adiloğlu, – 2001. – 115 s.

[11] Агаев, Ф.А. Строительство православных церквей в рамках переселенческой политики царизма в Северном Азербайджане в конце XIX - начале XX вв. // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. – 2012. № 2, – с.150-156.

[12] Балаев, А.Г. Азербайджанская нация: основные этапы становления на рубеже XIX-XX вв. – Москва: ООО ТиРу, – 2012. – 403 с.

[13] Swietochowski, T. Azerbaijan: The Hidden Faces of Islam // World Policy Journal, – vol. 19. – No. 3 (Fall 2002). – 69 p.

[14] Гусейнова, И. История народов Кавказа (с древнейших времен до наших дней). Учебное пособие для высших учебных заведений / И.Гусейнова. – Баку: Элм вя тяхсил, – 2018. – 1248 с.

[15] Гусейнова, И. Историческая энциклопедия Кавказа / И.Гусейнова. – Баку: Чашыоглу, – 2010. – 950 с.

[16] Ahmet Akmaz. Kafkasya Müridizm Hareketinin Önderi İmam Mansur // Yeni Türkiye, – yıl: 3, – s.1970-1988.

rülməsi, mühacir hərəkatı kimi məsələlərə işıq salan, [17] V.V.Deqoyevin Şimali Qafqazda baş vermiş hadisələr, xüsusilə İmam Şamil və onun həyatı haqqında dolğun məlumatlar əks etdirən,[18] V.H.Hacıyevin tədqiq edilən mövzunun tarixşünaslıqda nə cür əks olunduğunu göstərən[19] əsərləri diqqəti cəlb edir.

Beləliklə, bölgənin çar Rusiyası tərəfindən işğalı və ümumilikdə yerlərdə yürüdülən dövlət siyasəti ilə bağlı istər milli, istərsə də əcnəbi tarixşünaslıqda ciddi tədqiqatlar aparılmış və kifayət qədər elmi əsərlər yazılmışdır. Bununla yanaşı, Rusiyanın məhz dini siyasəti ilə bağlı milli tarixşünaslığımızda daha əhatəli araşdırmaların aparılmasına ciddi ehtiyac vardır ki, gənc alim R.Cabarovun tədqiqatları bu istiqamətdə böyük örnəkdir. Belə ki, R.Cabarovun məqalələrində[20] problemin ayrı-ayrı tərəfləri araşdırılmış, tədqiqatın əsas nəticələri nüfuzlu yerli və xarici jurnallarda çap olunmuş, regional və beynəlxalq səviyyəli konfranslarda məruzələr[21] edilərək elmi ictimaiyyətin diqqətinə çatdırılmışdır.

---

[17] Selim Deringil. 19. Yüzyılda Osmanlı İmparatorluğu'na Göç Olgusu Üzerine Bazı Düşünceler // Prof. Dr. Bekir Kütükoğlu'na Armağan'dan ayrı basım. – İstanbul Üniversitesi Edebiyat Fakültesi Tarih Araştırma Merkezi, – İstanbul. – 1991, – s. 435-442.

[18] Дегоев, В.В. Имам Шамиль: властитель, воин / В.В.Дегоев. – Москва: Русская панорама, – 2001, – 374 с.

[19] Гаджиев, В.Г. Движение кавказских горцев под руководством Шамиля в исторической литературе / В.Г.Гаджиев. – Махачкала, – 1956. – 48 с.

[20] Cabarov, R. Rusiyanın işğalından sonra Qafqazda dini siyasətin bəzi aspektləri // – Bakı: Sivilizasiya. Elmi-nəzəri jurnal. Bakı Avrasiya Universiteti, – 2019. №1 (41), – s.75-82; yenə onun. XIX əsrin sonu - XX əsrin əvvəllərində panislamizm və onun Qafqazda yayılması // – Bakı: Geostrategiya. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. – 2020. №3/4 (57-58), – s.88-94; yenə onun. Müridizm hərəkatı və onun güclənməsində İmam Şamilin rolu // – Bakı: Din araşdırmaları. Azərbaycan İlahiyyat İnstitutu, – 2020, №2 (5), – s.129-143; yenə onun. Влияние ислама на социокультурные структуры кавказских народов в XIX веке // ВГО УАН, Видавництво «Гілея». – Київ: Національний педагогічний університет імені М. П. Драгоманова. – 2019. – випуск 141, № 2, ч.2, – с.35-39 və s.

[21] Cabarov, R. Ermənilərin Cənubi Qafqaza köçürülməsi // "Azərbaycan Xalq Cümhuriyyəti tarixi tədqiqatlarda" mövzusunda Respublika elmi konfransının materialları, – Bakı: BDU, – 2021, – s. 81-85; yenə onun. Rusların və almanların Cənubi Qafqaza köçürülməsi // Dövlət suverenliyinin möhkəmləndirilməsi yolunda sosial və humanitar problemlərin həlli xüsusiyyətləri. Gənc tədqiqatçıların

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti çar Rusiyasının Qafqazda dini siyasəti, predmeti isə bu siyasət nəticəsində Qafqazda yaşanmış dini-tarixi proseslərdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin əsas məqsədi Rusiya imperiyasının Qafqaz regionunun müsəlman xalqlarına qarşı və ümumilikdə islama qarşı siyasətinin mahiyyətini araşdırmaqdan və xristian əhalisinin bölgəyə köçürülməsi ilə xristianlaşdırma siyasətinin təbiətini təhlil etməkdən, bu prosesdə ən əhəmiyyətli istiqamətləri müəyyən etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Rusiya işğalına qədər Qafqazda islamın təsirinin və əhalinin tərkibinin araşdırılması;
- Qafqazın işğalının nəticələrinin tarixi proseslərin sonrakı gedişinə, dini siyasətin xarakterinə təsirinin müəyyən edilməsi;
- Qafqazda islam dininə və ona etiqad göstərən xalqların nümayəndələrinə qarşı işğalçılıq siyasəti çərçivəsində atılan addımların təsir dərəcəsinin müəyyən edilməsi;
- Qafqazın işğalından sonra islam siyasətinə, şeyxülislamlıq və müftilik idarələrinin yaranmasına səbəb olan siyasi, dini, iqtisadi, hərbi və ictimai amillərin təhlil edilməsi;
- Müridizm hərəkatının yaranma səbəblərinin təhlili və onun Qafqaz xalqlarının Rusiyaya qarşı mübarizəsindəki rolunun üzə çıxarılması;
- Rusiya imperiyasının köçürülmə siyasətinin mahiyyətinin və istiqamətlərinin müəyyən edilməsi, istifadə edilmiş mexanizm və vasitələr haqqında təfsilati icmalın aparılması;
- Rusiya hakimiyyət orqanlarının müsəlman din adamları ilə əlaqələrində hüquqi və idarəetmə strukturlarının fəaliyyətinin təhlili;
- Rusiya tərəfindən soyqırım siyasətinə məruz qalmış Qafqaz xalqlarının mühacirəti və yerli siyasi-coğrafi xəritənin dəyişilməsi ilə bağlı nəticələrin öyrənilməsi;

---

Respublika elmi-praktik konfransının materialları, – Bakı: BDU, – 20 oktyabr 2021-ci il, – s.114-119; yenə onun. Колониальная политика царской России в отношении ногайского народа // Нові дослідження пам’яток козацької доби в Україні. Збірник наукових статей. Присвячується 30-річчю проголошення Незалежності України, Ніжин. – 2021, – с. 425-428.

- Panislamizm və onun Qafqazda yayılması məsələlərinin tədqiqi və ümumiləşdirilməsi.

**Tədqiqatın metodları**. Tədqiqatın nəzəri və metodoloji əsasını arxiv, tarixi, elmi-ictimai, statistik materialların təhlilinə sistemli yanaşma prinsipi təşkil edir. Tədqiqatın gedişində bu mövzunun araşdırılmasına həsr olunmuş monoqrafiyalar, dissertasiyalar və arxiv materiallarına istinad edilmiş, XIX əsr və XX əsrin əvvəllərini əhatə edən dövrdə mövzuya aid tarixi hadisə və proseslər xronoloji ardıcıllıqla öyrənilmiş, analiz, sintez, müqayisəli təhlil kimi müxtəlif elmi araşdırma metodlarından istifadə edilmişdir. Dissertasiya işinin metodoloji əsasını dialektik, məntiqi, müqayisəli-hüquqi, tarixi və sistemli analiz metodları təşkil edir.

**Müdafiəyə çıxarılan müddəalar.** Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

- Çar Rusiyasının Qafqazda dini siyasətində imperiya maraqları daim özünü dominant amil kimi büruzə vermişdir;
- Rusiyanın Qafqazda dini siyasətinin keçmişlə gələcəyin əlaqələndirilməsi, dini siyasi kursun müəyyən edilməsi, tolerantlıq mühitinin inkişaf etdirilməsi baxımından dövri olaraq yeni reallıqlar, çağırışlar və təhdidlər kontekstində araşdırılması zərurəti vardır;
- Qafqaz xalqlarının hərtərəfli inkişafının təmin edilməsində, milli özünəməxsusluqlarının qorunmasında, milli şüurun dərinləşməsində, digər xalqlarla, xüsusilə islam ümməti ilə inteqrasiyasında, eləcə də bölgədə elm və mədəniyyətin, sənət və fəlsəfənin inkişafında islamın yerinin və mövqeyinin müəyyənləşdirilməsi olduqca zəruridir;
- Qafqaz xalqlarının inkişaf xüsusiyyətlərinin səciyyələndirilməsi zamanı onlarda ideoloji proseslərin inkişafında, siyasi meyllərin yaranmasında, milli prioritetlərin təmin edilməsində islamın yerinin müəyyənləşdirilməsi təmin edilməlidir;
- İslamın tarixi rolunun və yerinin müəyyənləşdirilməsi Azərbaycanın ictimai-siyasi və elmi-mədəni tarixində, bugünündə və perspektiv inkişafında onun mövqeyini müəyyən edir;
- Rusiyaya qarşı milli mücadilə problemlərinin araşdırılması zamanı islamın rolunun müəyyən edilməsi, eləcə də Rusiyanın bölgədə assimilyasiya siyasətinin mahiyyətinin öyrənilməsi xüsusi diqqət tələb edir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- İşğalın ilk illərindən bölgənin müsəlman ruhanilərinin fəaliyyətinin təşkili istiqamətində həyata keçirilən tədbirlərin siyasi, dini, hərbi və iqtisadi baxımdan ətraflı təhlili aparılmışdır;
- İşğal siyasətinin və dini diskriminasiyanın əsas elementlərindən biri kimi Rusiya hakimiyyət orqanları ilə müsəlman ruhanilər arasında münasibətlərin normativ bazasının sistematik təhlili həyata keçirilmişdir;
- Qafqaz xalqlarının sosioloji problemlərinə islamın təsirinin xalqlara görə fərqli olduğu, lakin xarici təhlükəyə qarşı mübarizədə gücləndiyi, bu dinin Qafqaz xalqlarının həyatının ayrılmaz tərkib hissəsinə çevrildiyi müəyyən edilmişdir;
- XIX əsrin sonlarında və XX əsrin əvvəllərində istər Şimali, istərsə də Cənubi Qafqazda və onun tərkib hissəsi olan Azərbaycanda panislamizm ideyalarının yayılması və bu istiqamətdə təşkilatlanma prosesləri, Rusiya xüsusi xidmət orqanlarının buna qarşı mübarizəsi sistemli şəkildə öyrənilmişdir;
- Azərbaycanda ilk dəfə olaraq çeçen, inquş, kabardin, çərkəz və adıq xalqlarının İslama qədər və İslamın qəbulundan sonrakı etno-sosial strukturlaşması (dövlətləşmə, siyasi institutların əmələ gəlməsi və şəkil dəyişməsi) və dini iyerarxiyalaşması (ruhanilər sinfi və digər sosial-siyasi təbəqələr arasında qarşılıqlı münasibətlər) haqqında geniş məlumatlar verilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Dissertasiya işində materialların hərtərəfli təhlili əsasında əldə edilmiş elmi nəticələr, irəli sürülmüş elmi müddəalar, həmçinin ümumiləşdirmələr və yekunlar çar Rusiyasının Qafqazda islam siyasətinin öyrənilməsində və eləcə də bu sahədə növbəti elmi işlərin hazırlanmasında istifadə edilə bilər. Tədqiqatın nəticələri həmçinin müvafiq qurumların – Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan İlahiyyat İnstitutunun və digər müəssisə və təşkilatların, o cümlədən, ölkəmizin xarici siyasətini müəyyən edən və milli təhlükəsizliyini təmin edən qurumların fəaliyyətində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya Bakı Dövlət Universitetinin "Fəlsəfə tarixi və mədəniyyətşünaslıq" kafedrasında

hazırlanmış, həmin kafedrada müzakirə olunaraq müdafiəyə buraxılmışdır. Mövzu ilə bağlı dövri nəşrlərdə elmi məqalələr və konfrans məcmuələrində məruzələrin tezisləri dərc edilmişdir.

**Dissertasiyanın strukturu**. Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş elmi ədəbiyyatın siyahısından ibarətdir. Titul vərəqi və mündəricat 1 səhifə həcmində 821 işarədən, giriş 20 səhifə həcmində 33815 işarədən, birinci fəsil 35 səhifə həcmində 68476 işarədən, ikinci fəsil 35 səhifə həcmində 66303 işarədən, üçüncü fəsil 30 səhifə həcmində 58257 işarədən, nəticə 7 səhifə həcmində 12617 işarədən, istifadə edilmiş ədəbiyyat siyahısı 15 səhifə həcmində 20839 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 142 səhifədir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir, aprobasiyası və struktutu barədə məlumat verilir.

Dissertasiyanın **"Rusiyanın Qafqazı işğal etməsi və işğal ərəfəsində islam"** adlı **I fəsli** üç yarımfəsildən ibarətdir. **"Rusiya işğalına qədər Cənubi Qafqazda islamın təsiri və əhalinin tərkibi"** adlı birinci yarımfəsildə bölgədə, xüsusilə də Azərbaycanda islam dininin sürətlə yayılmasının səbəbləi araşdırılır, orta əsrlərdə islamın sünni təfsirinin bu ərazidə yerləşən dövlətlərin rəsmi ideologiyasına çevrilməsindən, şiə təfsirinin əhali arasında geniş yayılmasından danışılır, islami fikir məktəbləri arasında dini-mistik düşüncənin formalaşmasında hürufiliyin xüsusi rol oynadığı qeyd olunur. Məlumdur ki, Səfəvi sülaləsinin (1501-1722) hakimiyyətə gəlişi Şimali Qafqazda şiə tarixində yeni bir mərhələ olmuş, Şah İsmayıl Xətainin Səfəvilər dövlətini qurması Azərbaycanda şiəliyin inkişafına gətirib çıxarmışdı. Şiələr ənənəvi olaraq özlərini İran dünyasının bir hissəsi hesab edir və fars dilindən ədəbi dil kimi istifadə etməkdə davam edirdilər, sünnilər isə Osmanlı Türkiyəsinə meylli idilər. Xalq arasında şiəliyin üstün mövqe tutmasına baxmayaraq, Azərbaycanda qismən sünnilik qalırdı. Tədqiqatçıların

da qeyd etdikləri kimi, şiələr və sünnilər əsrlərlə Azərbaycanda yanaşı yaşamışlar.[22]

Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində ölkə əhalisinin böyük əksəriyyətini türkdilli müsəlman azərbaycanlılar təşkil edirdi. Demoqrafik vəziyyətlə əlaqədar statistik göstəricilər işğaldan bir qədər sonraya aid olsa da, bunu sübut edir və bölgədəki etno-demoqrafik mənzərəni açmağa imkan verir. 1863-1897-ci illəri əhatə edən dövr ərzində Azərbaycan əhalisinin sayının dinamikasına dair apardığımız araşdırmalar göstərir ki, 1863-1886-cı illərdə Azərbaycanda əhalinin sayı daha yüksək templərlə artmışdır. Belə ki, bu 23 il ərzində əhalinin sayının orta illik artımı 1,52% təşkil etmişdir. Halbuki, sonraki 11 ili əhatə edən 1886-1897-ci illərdə orta illik artım tempi 1,12% olmuşdur. Bu fərq heç də təbii artımdakı fərqlərlə deyil, miqrasiya proseslərindəki fərqlərlə izah edilə bilər. Belə ki, məhz 1863-1886-cı illəri əhatə edən dövrdə Rusiya və Osmanlı dövləti arasında sonuncunun ərazi itkiləri ilə yekunlaşan bir neçə müharibə baş vermiş və hər dəfə bu müharibələrdən sonra Cənubi Qafqaza, o cümlədən Azərbaycana Osmanlı dövlətinin torpaqlarından erməni əhalisi köçürülmüşdür.[23]

Cənubi Qafqazda müsəlman əhalinin yaşadığı ölkələrdən biri olan Gürcüstanda islam dini VII əsrin ikinci yarısı yayılmağa başlamışdır. İslamın Gürcüstana qədəm qoyması ilə bağlı məlum olan ən erkən sübut 704-cü ildə Tiflisdə zərb edilən və üzərində ərəbcə “Allah” yazısı olan dirhəmlərdir. XVI-XVIII əsrlərdə islamın Gürcüstanın şərqində yayılmasında İranın böyük təsiri olmuş və nəticədə çox sayda gürcü zadəganları müsəlman dinini qəbul etmişlər. Osmanlılar dövründə Gürcüstanın qərbində və cənubundakı Mesxeti, Acaristan və Abxaziya əhalisinin böyük bir qismi müsəlmanlığı qəbul etmişdir. Gürcüstanın XIX əsrdə Rusiya hakimiyyətinə tabe olması isə müsəlmanların çoxunun Türkiyəyə köç etməsinə səbəb olmuşdur.

---

22 Абасов, А. Ислам в современном Азербайджане: Образы и реалии. Сборник «Азербайджан и Россия: общества и государства» / А.Абасов. – Москва, – 2001. – 283 с.

23 Muradov, Ş.M. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar / Ş.M. Muradov, Ç.Ə.Baxış. – Bakı, – 2013, – s.11-12.

Ümumilikdə, islam Rusiya işğalına qədər Cənubi Qafqaz xalqlarının həyatına ciddi şəkildə təsir etmiş, müsəlman xalqların mentalitetinin formalaşmasının təməlini təşkil etmişdir.

Birinci fəslin **"Rusiya işğalı ərəfəsində Şimali Qafqaz xalqları və islam"** adlı ikinci yarımfəsli XIX əsrdə islamın Şimali Qafqaz xalqlarının sosial-iqtisadi və mədəni həyatına təsirinin öyrənilməsinə həsr edilmişdir.

VIII əsrdə ərəblər Xəzər türklərinə hücum edib bölgənin bir hissəsini fəth edərək Qafqaza daxil olsalar da onlara ciddi müqavimət göstərən xəzərlər islamın Qafqaz vasitəsilə Şərqi Avropaya yayılmasına imkan vermədilər. Bəzi müsəlman ərəb tayfaları Dağıstanda məskunlaşdıqdan sonra islam dini Dağıstanda yayılmağa başladı. Ləzgilərin bir qismi hələ VIII əsrdə, çeçenlərdən bir çoxu X-XI əsrlərdə islam dinini qəbul etdilər. Dağıstanda islamın yayılmağa başladığı dövrün dəqiq müəyyənləşdirilməsi mümkün olduğu halda, Çeçenistan haqqında bunu demək çətindir. Tədqiqatçıların fikrincə, islamın məhz hansı müəyyən dövrdə çeçenlər və inquşların mühitinə daxil olmasına heç bir mötəbər sübut yoxdur. [24] Çeçenlərin islamlaşmasına Osmanlı imperiyası ciddi təsir göstərmiş, İnquşetiyanın islamlaşmasında da türk elementi mühüm rol oynamışdır.

Dağıstan və Çeçenistandan fərqli olaraq, islam çərkəzlərin yaşadıqları ərazilərə Osmanlı imperiyası və Krım xanlığı vasitəsilə daxil olmuşdur. Lakin çərkəz tayfalarının şahzadələr, zadəganlar, azad kəndlilər və kölələr kimi sosial təbəqələrdən ibarət sosial strukturlarından irəli gələrək islam çərkəzlər tərəfindən asanlıqla qəbul edilməmişdir. Qafqazın dağlıq ərazidə yaşayan qaraçaylar XVIII əsrin sonunda kabardinlər vasitəsilə islamı qəbul etdilər. Demokratik quruluşa malik olan çərkəz tayfaları arasında islam hakim dinə yalnız XIX əsrin ikinci yarısında çevrilmişdir.

XIX əsrin əvvəllərində Şimali Qafqazda region əhalisinin etnik tərkibində və xalqların köçürülməsində nəzərəçarpacaq dəyişikliklər baş vermişdi. Bölgə xalqlarının sayı barədə mövcud məlumatlar natamam və ziddiyyətlidir. Şimali Qafqaz xalqlarının əhalisi haqqında

---

[24] Ахмадов, Я.З. История Чечни с древнейших времен до конца XVIII века / Я.З.Ахмадов. – Москва, – 2001, – s. 208.

əsasən XIX əsrin ortalarına aid olan məlumat təxmini hesablamalara əsaslanır. Çünki yerlilər özləri əhalinin qeydiyatını aparmırdılar: onlarda insanları saymaq günah hesab edilirdi.

Tədqiqatın I fəslinin "**Qafqazın işğalı və onun ilkin nəticələri**" adlı üçüncü yarımfəslində Rusiyanın Qafqazı işğal etdikdən sonra yaranmış vəziyyətdən bəhs edilir. Məlumdur ki, Rusiyanın qüdrətli dövlətə çevrilməsi yalnız I Pyotr hakimiyyəti dövründə mümkün olmuşdur. Məhz bu zaman Rusiyanın müdafiə məqsədli müharibələr dövrü başa çatmış, onun siyasi və iqtisadi maraqları həm ölkənin iqtisadi inkişafı, həm də dəniz blokadasını pozmaqla, Qara dəniz və Xəzər dənizlərinə çıxış əldə etməklə sərhədlərini genişləndirmək zərurəti ilə müəyyən edilmişdir. I Pyotrun Qafqazla bağlı strateji planı Rusiya təsirini Azovdan Kuban istiqamətinə, Həştərxandan İrana ipək bazarına qədər və Pyatiqorskdan Tiflisə - Gürcüstanın mərkəzinə qədər yaymağı nəzərdə tuturdu.[25] 1724-cü ildə Xəzər kampaniyasının nəticələrinə görə, Konstantinopol Sazişi Türkiyə, Rusiya və İranın Cənubi Qafqazda sahib olduqları torpaqların sərhədlərini müəyyənləşdirdi.

Qafqazda Rusiyanın hərbi-siyasi maraqlarının həyata keçirilməsi 1768-1774-cü illərdə Türkiyə ilə müharibədə qələbə qazanması və nəticədə Türkiyənin itirdiyi ərazini Küçük Qaynarca müqaviləsinin şərtlərinə uyğun əldə edilməsi ilə başlamışdı.[26] Müharibənin ən mühüm nəticəsi əvvəlcə Krım xanlığının muxtariyyətinin təmin edilməsi, daha sonra isə bütövlükdə Rusiyanın tərkibinə daxil olması idi.

İkinci rus-türk müharibəsi və onun nəticələri bölgədə Rusiyanın mövqeyini kifayət qədər gücləndirmiş, nəticədə Qafqaza yol açılmış və XVIII əsrin ikinci yarısında Şərq məsələsinin tərkib hissəsi olan Cənubi Qafqazın Rusiyaya daxil edilməsi məsələsi praktik icraat müstəvisinə keçdi. Şimali Qafqaz xalqlarının Rusiyaya yerləşdirilməsi prosesi bəzən zorakılıqla, bəzən könüllü və müqaviləli şəkildə həyata keçirilirdi. 1812-ci ildə, demək olar ki, bütün Dağıstan Rusiya tabeçiliyini qəbul etmişdi. İnquşetiya 1770-ci

---

[25] Бушуев, С.К. Из истории внешнеполитических отношений в период присоединения Кавказа к России / С.К.Бушуев. – Москва, – 1955. – 59 с.
[26] Сухотин, Н.Н. Война в истории русского мира / Н.Н.Сухотин. – СПб., – 1898, – s. 20.

ildə, Çeçenistan 1781-ci ildə Rusiyanın tabeliyinə keçmişdi.[27] 1774-cü ildə Osetiya və Kabarda da Rusiya imperiyasına tabe edilmişdi.

Rusiyanın Qafqaz siyasətində dönüş nöqtəsi 1805-1815-ci illərdə Napoleon müharibələrindən sonra baş vermiş və dəyişiklik general A.P.Yermolovun Cənubi Qafqazın qubernatoru təyin edilməsi ilə bağlı olmuşdur. A.P.Yermolov sərt hərbi-müstəmləkə üsulları ilə həyata keçirilən fəaliyyətinə Çeçenistan və Dağıstanın Rusiyaya tabe edilməsindən başladı. Cənubi Qafqazda Rusiya tərəfindən ilk növbədə Gürcüstan işğal edildi və Zaqafqaziyanın işğalına başlanıldı.

XVIII əsrin sonunda - XIX əsrin əvvəllərində Azərbaycanda xarici və daxili siyasi vəziyyət olduqca ağır idi. Əvvəlcə Şəki və daha sonra Quba xanlıqlarını öz ətrafında birləşdirmək və vahid Azərbaycan dövləti yaratmaq cəhdləri uğursuzluqla nəticələnmişdi. Belə şəraitdə Azərbaycanda İran və çar Rusiyasının aqressiv planlarının qarşısını ala biləcək real qüvvələr yox idi.

Azərbaycanı ələ keçirmək üçün I Pyotr tərəfindən başlanan ilk uğursuz cəhdlərdən sonra XIX əsrin əvvəllərində II Yekaterina bu siyasəti davam etdirdi. İlk dəfə rus əsgərləri 1722-ci ildə Azərbaycanın Xəzəryanı bölgələrini işğal etmiş, lakin 1735-ci ildə bu yerləri tərk etmişdilər. II Yekaterina dövründə hərbi-siyasi fəaliyyəti intensivləşən Rusiya 100 ildən çox İranın təsiri altında olan bölgənin ilhaqının ikinci mərhələsinə qədəm qoydu. XVIII əsrin sonlarında Azərbaycan xanlıqları arasında yaranmış ciddi ziddiyyətlər onların Rusiya işğalına qarşı konsolidasiyasına imkan vermirdi. Qubalı Fətəli xanının ölümündən sonra onun rəhbərliyi ilə yaradılan Şimal-Şərqi Azərbaycan dövləti tədricən dağılmağa başladı. 1803-cü ilin yazında rus qoşunları Balakəni işğal etdikdən sonra əhalinin bir qismini məhv etdilər. 1804-cü ilin yanvarında Gəncə işğal edildi.

1805-ci il mayın 14-də P.Sisianov və İbrahim Xəlil xan arasında Qarabağ xanını Rusiya hakimiyyətini qəbul etməyə məcbur edən saziş imzalandı.[28] Müqavilənin məhz azərbaycanlılarla imzalanması onu deməyə əsas verir ki, bu coğrafi ərazidə ermənilərin heç bir

---

[27] Гриценко, Н.П. Социально-экономическое развитие притеречных районов в XVIII - первой половине XIX в. / Н.П.Гриценко. – Грозный, – 1961, – s. 29.

[28] Акты Кавказской археографической комиссии (АКАК) / Под ред. А.Д.Берже. – Тифлис, – 1868. – т. II., док. 1436, – s.702-705.

dövlət təsisatı olmamışdır. Bir həftə sonra eyni müqavilə Şəki xanı ilə imzalandı. Strateji cəhətdən əhəmiyyətli Qarabağ xanlığının ələ keçirilməsi Azərbaycanın tam işğalının başlanğıcı idi. 1806-cı ilin oktyabrında Bakı xanlığı ələ keçirildi və ləğv edildi. Tezliklə Quba xanlığı da zəbt edildi. Rusiya Şimali Azərbaycan dövlətləri üzərində hakimiyyətini ciddi şəkildə genişləndirdi.

1804-1813-cü illərdə Rusiya-İran müharibəsində Rusiya qələbə qazandı və nəticədə 13 oktyabr 1813-cü ilin Gülüstan müqaviləsi kimi tarixdə yer almış sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə əsasən, İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, Arazın şimalından, yəni Gəncə, Qarabağ, Şəki, Lənkəran, Şamaxı, Bakı, Quba və Dərbənd xanlıqlarının bütün ərazisi Rusiyanın tabeliyinə keçdi. 1828-ci il fevralın 12-də ruslar və iranlılar Türkmənçay sülh sazişinə imza atdılar. Bu sənədə əsasən, Şimali Azərbaycanın xanlıqları, o cümlədən Qarabağ, Naxçıvan və İrəvan imperiyaya daxil edilməklə vilayətlər kimi ləğv edildilər.

Beləliklə, Şimali və Cənubi Qafqaz bölgələrinin Rusiya tərəfindən işğalı nəticəsində bu coğrafi ərazidə müstəqil dövlətlərin mövcudluğuna son qoyuldu.

Dissertasiyanın "**Qafqazda çar Rusiyasının islam siyasətinin müstəmləkə xarakteri**" adlı **II fəsli** üç yarımfəsildən ibarətdir. "**Qafqazın işğalından sonra islam siyasəti, şeyxülislamlıq və müftilik idarələrinin yaranması, islam dini haqqında çar qanunları**" adlı birinci yarımfəsildə çar hökumətinin Qafqazda islam siyasətində nəzərə aldığı bir sıra amillərə, o cümlədən şiələrlə sünnilər arasında olan dini fərqlərə, İmam Şamil zamanından Dağıstanın dağlıq rayonlarında dini müqavimət hərəkatına diqqət yetirilmişdir.[29] Qeyd edilməlidir ki, çar administrasiyasının vəzifəli şəxsləri və hərbi rəhbərlik arasında Qafqazda dini siyasətin aparılmasının təbiəti və üsulları ilə bağlı fikir ayrılıqları olmuşdur. Daha uzaqgörən rus siyasətçiləri Rusiya hökumətini müsəlmanların dininə toxunmamağa çağırırdılar, digərləri isə tamamilə fərqli mövqedə idilər.

---

[29] Матвеев, В.А. Российское мусульманство на Северном Кавказе: исторические аспекты проблемы / В.А.Матвеев. – Армавир-Ростов-на-Дону, – 2004. – 64 с.

Rusiya hakimiyyəti ilk dəfə şiə müsəlmanları ilə I Aleksandr dövründə, Gəncə xanlığı Rusiya imperiyasına daxil edildikdə qarşılaşmışdı. Bu ərazidə yaşayan şiə azərbaycanlılar 1917-ci ilə qədər "Zaqafqaziya tatarları" adlandırılırdılar. Gülüstan və Türkmən-çay sülh müqavilələrinin şərtlərinə uyğun olaraq Şirvan, Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarının Rusiya imperiyasına qoşulmasından sonra şiə müsəlmanlarının əksəriyyəti Rusiya təbəələrinə çevrildilər. Hökumət Qafqaz müharibəsi dövründə Zaqafqaziya müsəlmanlarının ruhanilərinin, Rusiya hakimiyyətlərinə dəstək verən şiə ruhanilərinin sadiqliyini təmin etmək üçün tədbirlər gördü. Rusiyada mövcud olan müftilik modelləri əsasında müftinin rəhbərlik etdiyi Zaqafqaziya Sünni Məhəmmədi Ruhani Şurası və şeyxül-islamın rəhbərlik etdiyi Zaqafqaziya Şiə Məhəmmədi Ruhani Şurası yaradıldı.[30]

Şimali Qafqazda və Dağıstanda ilk dövrlərdə çox sərt tədbirlərlə çıxış edən çar məmurları sonradan fəaliyyətlərini bir qədər yumşaltmaq məcburiyyətində qalmışdılar. Müsəlmanların həcc ziyarətinə maneçilik törədilməsinin fəsadlarını anlayan çar məmurları həcc ziyarəti ilə əlaqədar çox sayda zəvvarın problemlərinin həllinə kömək etməyə başlamış, məscidlər və ibadət evlərinin bərpasına və müsəlman icmaları tərəfindən inşasına qadağa qoymamışdır.

Lakin imperiyanın Azərbaycan ərazisində əhalinin ruslaşdırılması və xristianlaşdırılmasına yönəlmiş siyasəti uzun illər davam etdirilmişdir. Çar hökuməti 1828-1829-cu illərdə Osmanlı imperiyasına qarşı müharibədə Azərbaycanın şiələrindən istifadə etməyə çalışmış, məscidlərin nəzdində fəaliyyət göstərən mədrəsələri daha ciddi nəzarətdə saxlamışdır.

XIX əsrin əvvəllərində Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çarizm burada öz müstəmləkəçilik siyasətini daha da dərinləşdirmək üçün bəzi tədbirlər həyata keçirməyə başladı. Bu tədbirlərdən biri yerli əhalinin – azərbaycanlıların dini əqidəsinə təsir göstərmək, onları həm hüquqi-siyasi, həm də mənəvi-psixoloji

[30] Гаврилов, Ю.А. Ислам и православно-мусульманские отношения в России в зеркале истории и социологии / Ю.А.Гаврилов, А.Г.Шевченко. – Москва: Культурная революция, – 2010, – s. 42.

cəhətdən rus çarizminin müstəmləkəçilik qaydalarına tabe etdirməkdən ibarət idi. Azərbaycanlıların ruslaşdırılması və xristianlaşdırılması məsələsi XIX əsrin əvvəllərində rus çarizminin qarşısında duran ən vacib məqsədlərdən biri olmuşdur. Çar hökuməti bu dövrdə Rusiyanın və Ukraynanın mərkəzi quberniyalarından Şimali Azərbaycana xeyli malokan, duxobor və s. təriqətlərdən olan ailələr köçürmüşdür. Təkcə 1833-1843-cü illərdə Rusiyadan Azərbaycana köçürülənlərin hesabına burada 20-yə qədər kənd yaranmışdır.

Göründüyü kimi, Rusiya Qafqazı işğal etdikdən sonra burada müsəlman əhaliyə, onun dini hüquqlarına və islam dininə qarşı qərəzli siyasət yürütmüşdür. Lakin bu siyasət öz nəticəsini verməmiş, əksinə, Qafqaz xalqlarını öz dinlərinə daha möhkəm başğlamışdır.

İkinci fəslin "**Müridizm hərəkatı və onun güclənməsində İmam Şamilin rolu**" başlıqlı ikinci yarımfəsli Şimali Qafqazı bürümüş mübarizə hərəkatına həsr olunmuşdur. Çar dövrünün tanınmış tarixçiləri XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Qafqazda müridizm hərəkatı çərçivəsində baş vermiş münaqişələri müsəlmanlar və xristianlar arasında dini qarşıdurma kimi qiymətləndirirdilər.[31] Müridizm hələ XVIII əsrin 80-ci illərində Şeyx Mənsurun başçılığı ilə rus işğalına müqavimətin əsas ideologiyası kimi tarixə yazılmışdır. Qafqaz müharibəsinin ilk tarixçilərindən olan V.A.Potto yazırdı: "*1785-ci ildə Qafqazda Şeyx Mansur kimi tanınan, yarı-siyasi, yarı-dini Məhəmmədi doktrinasının başlanğıcını qoyan və müsəlman Qafqaz dünyasını xristianlıq və Rusiyaya qarşı şiddətli bir müqavimətə təşviq edən birisi çıxdı*".[32] XIX əsrin 30-cu illərində kəskin sinfi və milli ziddiyyətlər şəraitində Dağıstan və Çeçenistan dağlıları muridizmin bayrağı altında birləşə bilmişdilər. Onların rus hakimiyyətinə qarşı mübarizəsində sufi təriqətlərinin təlimi əsas rol oynamışdır. Qafqaz dağlılarının müqavimət hərəkatına müxtəlif dövrlərdə İmam Qazi-Məhəmməd, İmam Həmzə bəy kimi nüfuzlu şəxslər başçılıq etmişlər. Sonralar dağlı hərəkatına rəhbərlik

---

[31] Дубровин, Н.Ф. О народах Центрального и Северо-Западного Кавказа / Н.Ф.Дубровин. – Нальчик, – 2002. – 532 с.

[32] Потто, В.А. Кавказская война: [в 5-ти томах] / – Ставрополь: Кавказский край, – 1994, – т.1. – s.134.

İmam Şamilə keçmişdir. Şeyx Şamil təkcə Qafqazda deyil, Osmanlıda və digər islam ölkələrində də böyük hörmət qazanmış və Qafqaz tarixində öz silinməz imzasını qoyumudur. O, həm də Rusiya məmurlarına və çarına kifayət qədər güclü təsir göstərə bilmişdir. Həbs edildikdən sonra onu Rusiyada məhbus kimi deyil, qonaq kimi qarşılamışdılar: ona düşmənləri də böyük hörmət və ehtiramla yanaşırdılar. Çeçenistan və Dağıstanın üçüncü imamı olduqdan sonra Şamil 25 il uğurla Rusiya qoşunlarına qarşı mübarizə apararaq, Dağıstan və Çeçenistan dağlılarını bir araya gətirmiş, Dağıstan və Çeçenistanda naibliklərə bölünən İmamət dövlətinin əsasını qoymuş, vergi sistemini formalaşdırmışdı. XIX əsrin 40-cı illərinin birinci yarısında İmam Şamilin Qafqazda həyata keçirdiyi bir sıra uğurlu hərbi əməliyyatlardan biri onun Kabardaya yürüşü ilə bağlıdır. Bu hadisələrlə bağlı əldə edilmiş məlumatlar dissertasiyada xronoloji ardıcıllıqla əks olunmuşdur.

Müridizm hərəkatından sonra Qafqazda Rusiya hakimiyyəti altında qalmaq istəməyənlərin köçürülməsi prosesi geniş vüsət aldı. General A.Yermolov Azərbaycan xanlıqlarının ləğv edilməsini, Rusiyanın idarəetmə sistemini və Rusiyanın Qafqazdakı bütün yeni torpaqlarda inzibati-ərazi bölgüsünün rus ənənəsini tətbiq etməyi təklif etdi. Beləliklə, müxtəlif bəhanələrlə Şəki, Şirvan və Qarabağ xanlıqları Azərbaycanda ləğv edildilər.

Şeyx Mənsurla başlayan müridizm hərəkatı islami ideyalar ətrafında Qafqaz xalqlarının ruslara qarşı müqavimətinin bir nümunəsi kimi tarixə yazılmışdır. Onun Qafqaz xalqlarının özünüdərkinə, eləcə də bütün zülmlərə baxmayaraq dini etiqadlarını qorumasına müsbət təsiri olmuşdur.

İkinci fəslin "**Xristian xalqlarının Qafqaza köçürülməsi və xristianlaşdırma siyasəti**" başlıqlı üçüncü yarımfəsli Rusiya-İran müharibəsi nəticəsində 1826-1828-ci illərdə Azərbaycanın şimal hissəsinin Rusiya tərəfindən işğal olunması, cənub bölgəsinin isə İran dövlətinin bir hissəsinə çevrilməsi, yəni Azərbaycanın iki hissəyə - Şimala və Cənuba bölünməsi ilə bağlı hadisələrin tədqiqinə, çar Rusiyasının Azərbaycan torpaqlarından azərbaycanlıların çıxarılması və xristian miqrantların bu ərazilərdə yerləşdirilməsi siyasətinin əsas məqsəd kimi şərh edilməsinə həsr olunmuşdur. Rusiyanın bu istiqamətdə fəaliyyətinə qarşı ən mühüm dirəniş platforması islam

dini olmuşdur. Azərbaycanın şimal torpaqlarını işğal edən Rusiya imperiyası Cənubi Qafqazda müstəmləkə siyasətinin tərkib hissəsi kimi köçürmə siyasətini həyata keçirməyə qərar vermişdi. Şimali Azərbaycan üçün strateji planın mahiyyəti bu ölkəni Rusiya imperiyasının ayrılmaz hissəsinə çevirmək idi. Rusiya-İran müharibəsi dövründə və daha sonralar, 1804-1813-cü və 1826-1828-ci illərdə ermənilərin Cənubi Qafqaza, xüsusilə də Qarabağa kütləvi miqrasiyası nəticəsində bu ərazilərdə yaşayan ermənilərin sayı durmadan artmağa başladı. Ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri məhz mühüm strateji əhəmiyyət kəsb edən Qarabağ ərazisi olmuşdur. XIX əsrin əvvəllərində Qafqaz qoşunlarının baş komandanı P.D.Sisianov Gəncəni ələ keçirdikdən sonra 1805-ci il 22 may tarixli 19 nömrəli raportunda yazırdı ki, Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısı hesab edilir, buna görə də onu itaətdə saxlamalı və burada mövqeyimizi möhkəmlətməyə daha çox cəhd göstərməliyik.[33]

1832-ci ildə Qarabağ vilayətində 32.4 min (64.8%) azərbaycanlı və 17.4 min (38.8%) erməni qeydə alınmışdı. 1880-ci illərin sonlarında Şuşa qəzasında azərbaycanlıların nisbəti 41.5%-ə düşmüş, ermənilərin payı isə 58,2%-ə çatmışdı. 1897-ci ildə Ümumrusiya hesablamalarına görə, eyni göstəricilər müvafiq olaraq 53% və 45% olmuşdur. [34] Köçürmə siyasətini həyata keçirmək üçün çarizmin atdığı ciddi addımlardan biri də Cənubi Qafqazda ermənilər üçün xüsusi “vilayət”in təşkil edilməsi olmuş, 1828-ci il martın 20-də Türkmənçay müqaviləsi ratifikasiya edildikdən bir gün sonra çar I Nikolay “Erməni vilayəti”nin yaradılması haqqında fərman imzalamışdır. “Erməni vilayəti” Azərbaycanın tarixi torpaqlarının hesabına yaradılmış və vilayət inzibati olaraq İrəvan və Naxçıvan əyalətlərinə, eləcə də Ordubad dairəsinə bölünmüşdür. Vilayətin idarəsi isə gürcü knyazı, general-mayor A.Q.Çavçavadzeyə həvalə

[33] Əhmədov, E.İ. Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal: [2 cilddə] / – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, – 2015, – c.2. – s. 9.
[34] Кавказский календарь на 1896 г., – V отд., – s. 3.

edilmişdir.[35] Ermənilərlə yanaşı, Azərbaycana ruslar da köçürülürdü. Azərbaycan ərazisində ilk rus qəsəbələri 1830-1850-ci illərdə salınmışdır. 1897-ci ildən 1913-cü ilə qədər təkcə Bakıda Rusiya miqrantlarının sayı 38975-dən 76288 nəfərədək artmışdır. Rus işçiləri əsasən Bakının şimal-şərq ətrafında sənaye rayonu olan Qara və Ağ Şəhərdə yerləşdirilirdilər.[36]

Ümumilikdə, həmin dövrdə Azərbaycanda yüzdən artıq rus pravoslav kəndinin təməli qoyulmuşdur. Azərbaycana köçürülmüş xristian əhali arasında almanlar da az olmamışdır. Tədqiqatçıların fikrincə, onların Cənubi Qafqaza köçürülməsinin iki səbəbi var:

1) XIX əsrdə Almaniyanın daxilində ictimai-siyasi şərait;

2) Qafqazda müstəmləkəçilik siyasətini həyata keçirən Rusiya imperiyasının siyasi və iqtisadi vəziyyətini əks etdirən səbəblər.

Qafqazın siyasi və iqtisadi itaətkarlığının təmin edilməsi rus çarizminin köç siyasətinin başlıca məqsədi olmuşdur. 1886-cı ildə əhalinin siyahıya alınması ilə bağlı məlumatlara görə, bölgədə 140095 rus, 5843 polyak, 9260 alman, 57156 yunan yaşayırdı.[37] XX əsrin əvvəllərində Qafqazdakı slavyan xalqlarının – ruslar, ukraynalılar və belarusların, həmçinin polyaklar, çexlər və bolqarların sayı əhəmiyyətli dərəcədə artmışdı. Lakin Rusiya çarizminin bütün cəhdlərinə baxmayaraq, istər Şimali Qafqazda, istərsə də Cənubi Qafqazda müsəlman xalqların xristianlaşdırılması mümkün olmamışdır. Bəzi fərdlər istisna olmaqla yerli xalqlar xristianlığı qəbul etmədilər. Çünki xristianlıq Rusiya imperiyasının timsalında zülmü və təhkimçiliyi təmsil edirdi. Halbuki, Qafqazda islam bir vaxtlar zor tətbiq edilmədən yayılmış və Şimali Qafqaz xalqlarının milli xüsusiyyətinə çevrilmişdi.

Dissertasiyanın "**Qafqaz xalqlarına qarşı soyqırım siyasəti və panislamizm etiraz əlaməti kimi**" adlı III fəsli iki yarımfəsildən

[35] Mirzəzadə, A. XIX əsrın 20-30-cu illərındə çar Rusıyası tərəfındən ermənılərın Cənubı Qafqaza kütləvı köçürülməsı və bölgədə "ermənı amili"nın yaranması // – Bakı: Tarix və onun problemləri. – 2014. № 4, – s. 60.

[36] Баберовски, Й. Цивилизаторская миссия и национализм в Закавказье: 1828-1914 гг. // Новая имперская истории постсоветского пространства / Сборник статей. – Казань: Центр исследований национализма и империи. – 2004. – с.322.

[37] Кавказские войны // Энциклопедический словарь. Изд. Ф.А.Брокгауза и И.А.Ефрона. – СПб., – 1894, – с. 229.

ibarətdir. “**Çar Rusiyasının Qafqazın müsəlman xalqlarına qarşı soyqırımı və mühacir hərəkatı**” adlı birinci yarımfəsildə Rusiyanın Qafqazı işğal etdikdən sonra burada ona qarşı şiddətli müqavimət göstərmiş xalqlara, xüsusilə şimal-qərbi Qafqazda yaşayan ən qədim xalqlara - çərkəzlərə, adıqlara, ubıxlara qarşı başladığı soyqırım siyasətindən, öz torpaqlarından qovulmuş və ya qətliama məruz qalmış əhalinin yaşadığı ərazilərdə slavyan və digər xristian xalqların məskunlaşdırılmasından bəhs edilir. Kütləvi hal alan Qafqaz köçləri 1862-1865-ci illər arasında ən yüksək nöqtəsinə çatmış, 1877-1878, 1890-1908 illər və 1920-ci illər arasında daha da yüksəlmişdi. Osmanlı torpaqlarına köçən çərkəzlərin sayının 1 milyondan 2 milyona qədər olduğu təxmin edilir. Miqrasiya zamanı həyatını itirənlərin ümumi miqrant əhalisinin təxminən 25%-ni təşkil etdiyi düşünülür.

Bir çox Rusiya tarixçiləri hər vəchlə imperiyanın çərkəz-adıq xalqlarına qarşı olan soyqırımını ört-basdır etməyə çalışırlar. Lakin alimlərin bu cəhdləri açıq olan tarixi həqiqəti gizlətməyə imkan vermir. Xüsusilə müstəqil Qərb müəlliflərinin tədqiqatları çərkəz və adıqların kütləvi şəkildə qətlə yetirilməsi faktlarını ortaya qoyur. Çərkəz soyqırımı mövzusu bir çox xarici ölkə tarixçiləri və ekspertləri tərəfindən nəzərdən keçirilmişdir. İlk növbədə araşdırmalar nəticəsində dünyada ümumi çərkəz sayının 6.248.000 olduğunu təsbit etmiş amerikalı müstəqil tədqiqatçı və ekspert Stefan D.Şenfildi qeyd etmək lazımdır. O, çərkəzlərin yalnız yüzdə 10-unun tarixi vətənində məskunlaşdığını qeyd edir. Tədqiqatçı soyqırımın olub olmaması sualına belə cavab verir: “*Müəlliflərin təqdim etdiyi faktları öyrəndikdə, təsdiqedici cavabdan başqa bir variant qalmır*”. [38] Digər amerikalı diplomat və ekspert Paul B.Henz çərkəzlərin Rusiya imperiyasına qarşı mübarizəsi haqqında monoqrafiyasında yazır: “*Nə baş verdiyini ən azından soyqırımı ilə müqayisə etmək lazımdır”.* [39] Belfast Universitetinin mütəxəssisi

---

[38] The Circassians: A Forgotten Genocide? By Stephen D. Shenfield 1999; article from «Studies on War and Genocide», – vol. 1, in the series «War and Genocide», – Oxford and New York: Berghahn Books.

[39] Paul, B. Henze. The North Caucasus Barrıer. Circassian Resistance to Russia. 'The North Caucasus Barrier' / Edited by Marie Bennigsen Broxup, published by HURST & CO. – 2007, – s.111.

Mikael Mann çərkəzlərin qanlı faciəsini "etnik təmizləmə" adlandırır.[40] Antero Laitsinger çar Rusiyasının XIX əsrdə çərkəz xalqına qarşı həyata keçirdiyi soyqırımın o dövrün ən böyük soyqırımı olduğunu bildirir: "*Çar Rusiyasının çərkəz xalqına qarşı həyata keçirdiyi soyqırım XIX əsrdə ən böyük soyqırım idi. Buna baxmayaraq, o, sonradan unudulmuşdur, bütün dünya yəhudilərin soyqırımını və ermənilərin (saxta - müəllif) soyqırımını bildiyi halda".*[41]

Qafqazda yerli əhalinin azaldılması aşağıdakı üsullarla həyata keçirilmişdir: fiziki məhv, kəndlərin işğalı, bitkilərin yandırılması və ərzaq təchizatının qarşısının alınması. Ruslar yazırdı: "*Biz addım-addım irəli getdik, bütün torpaqları dağlılardan son adamadək təmizlədik".*[42]

Tarixi mənbələrdən əldə edilmiş məlumatlara görə, Qafqaz Ordusunun komandanı qraf Mixail Nikolayeviç də yerli əhalinin əsas hissəsinin fiziki məhv edilməsini qarşıya məqsəd kimi qoyurdu. O, 1863-cü ilin noyabr ayında müdafiə nazirinə bu cür tədbirlərin zəruriliyi barədə yazırdı.[43]

Elmi araşdırmalarda çərkəzlərin soyqırımının ən aktual dövrünün 1763-1864-ci illərə təsadüf etdiyi vurğulanır ki, bununla da razılaşmaq çətindir. Əslində, qeyd olunan dövr hərbi əməliyyatların ən qaynar dövrü olmuşdur, lakin çərkəz soyqırımı XX əsrin əvvəllərinə qədər - 1907-ci ilə qədər, yəni bəşər tarixində mühüm əhəmiyyət kəsb edən sənədin - 18 oktyabr 1907-ci ildə "Quruq müharibəsi qanunu və adətləri haqqında" IV Haaqa Konvensiyasının qəbuluna qədər davam etmişdir.

Rusiya tərəfindən soyqırım siyasətinə məruz qalmış Qafqazın və Krımın türk-müsəlman xalqlarından biri də noqaylardır. 1782-ci ilin

---

[40] The Darkside of Democracy: Explaining Ethnic Cleansing, by Michael Mann / – CUP, – 2005. – p. 98-100.

[41] Leitzinger, A. The Circassian Genocide // "Turkistan News" (The Eurasian Politician – Issue 2, – October 2000.

[42] Венюков, М.И. К истории заселения Западного Кавказа. 1861-1863 гг. // Русская старина. – СПб. – 1878. – кн. VI (июнь), – s. 249.

[43] Проблемы Кавказской войны и выселение черкесов в пределы Османской империи // Сборник архивных материалов. – Нальчик: Эльбрус, – 2001, – s. 228.

sonunda Krımda baş verən üsyan və Kuban noqaylarının çıxışları Rusiya qoşunları tərəfindən xüsusi qəddarlıqla yatırılmışdı. Çar hökuməti təxminən 500 min noqayı qətlə yetirmiş, bir milyondan çoxunu Türkiyəyə köçməyə məcbur etmişdi. 1859-cu ildən 1895-ci ilə qədər davam edən köçdə 100 min noqay vətənini tərk edərək Türkiyədə məskunlaşmışdı. Çar hökumətinin noqaylara qarşı həyata keçirdiyi cinayət bu gün araşdırmaçılar tərəfindən soyqırım kimi qəbul olunmaqdadır.[44]

Etiraf edilməlidir ki, tarixi cinayətlər əvvəl-axır özünün ədalətli cavabını tapır. Müasir beynəlxalq siyasi şəraitin inkişafı onu deməyə əsas verir ki, Rusiya bir gün bu cinayətlərin xələfi kimi Qafqaz xalqlarından üzr istəyəcəkdir. Elmi ictimaiyyətin vəzifəsi isə bu soyqırımla dünya ictimaiyyətini tanış etməkdir. Gerçək soyqırım qondarma erməni soyqırımı deyildir, çoxsaylı Qafqaz xalqlarının soyqırımıdır.

Üçüncü fəslin "**XIX əsrin sonu - XX əsrin əvvəllərində panislamizm və onun Qafqazda yayılması**" adlı ikinci yarımfəslində islam dünyasında mühüm simalardan biri kimi tanınan Cəmaləddin Əfqaninin fəaliyyətinə, siyasi panislamizmin təşkilatlanmasında roluna həsr edilmiş, panislamizm dini-mədəni və siyasi fenomen olaraq araşdırılmışdır. Panislamizmin siyasi qüvvə kimi formalaşmasında başlıca hadisə 1905-ci il avqustun 15-də Nijni Novqorod şəhərində baş tutan ilk müsəlman konqresidir. Konqresin qətnaməsi iştirakçıların Rusiya müsəlmanlarının siyasi və mədəni məsələlərdə birləşdirilməsi və bununla da müsəlmanların ruslarla siyasi, dini və mülkiyyət hüquqları baxımından bərabər olmalarına, onların parlament mübarizəsində fəal iştirak etmələrinə nail olunması ilə bağlı arzularını əks etdirirdi. 1906-cı ilin yanvarında Sankt-Peterburqda keçirilmiş İkinci Müsəlman Qurultayı yeni "İttifaqi müslimin" siyasi partiyasının Nizamnaməsini qəbul etdi və tolerantlıq ideologiyasını qəbul edən Konstitusiya əsasında Demokratik Xalq Azadlığı Partiyası ilə əməkdaşlıq qurmağı münasib hesab etdi. Bundan başqa, digər fəaliyyət istiqamətləri də

---

[44] Aliyeva, S. Nogay Kıyımı: Rusya İmparatorluğunun Nogayları İmha Eylemi Ve Günümüzdeki Yankıları / Asker A. // Uluslararası Suçlar Ve Tarih Uluslararası hakemli dergi. – 2012. – sayı 13, – s. 54.

konkretləşdirildi. [45] Qafqazda panislamizmin formalaşmasının xüsusiyyətləri ermənilər və azərbaycanlılar arasında baş verən milli münaqişənin təsiri ilə müəyyənləşirdi. 1904-1905-ci illərdə baş vermiş silahlı toqquşmalar Qafqazın müsəlman cəmiyyətində birliyə nail olunmasına təkan verdi. Şimali Qafqazda panislamizm hərəkatının görkəmli nümayəndələri sırasında İbrahim bəy Heydərov, Nəcməddin Qotsinski, seyid Hacımir Heydərzadə kimi həmvətənlərimiz xüsusi fəallıqları ilə seçilirdilər.

XX əsrin əvvəllərində Azərbaycanda ermənilər tərəfindən bir sıra qətliamlar törədilir. Bu özbaşınalıqların qarşısını almaq məqsədilə 1905-ci ildə görkəmli türkçü-ziyalı Əhməd bəy Ağaoğlu Bakıda "Fədai" adlı gizli cəmiyyət yaradır. Bir müddət sonra cəmiyyət "Difai" partiyasına çevrilir. Onun fəaliyyətində Ələkbər bəy və Ələsgər bəy Xasməmmədov qardaşları, Həsən bəy Ağayev, Ələkbər bəy Rəfibəyli, Şeyxülislam Axund Molla Məhəmməd Pişnamazzadə, Mirzə Məhəmməd Axundzadə, Mirzə Cavad kimi şəxsiyyətlərin rolu böyük olmuşdur. [46] Azərbaycanda panislamizm düşüncələrindən təsirlənmiş Əhməd bəy Hüseynzadə islam-türk millətinin yüksəlməsi və müasirləşməsi düsturunun türkləşmək, islamlaşmaq və avropalaşmaqdan ibarət olduğunu bildirirdi. 1917-1920-ci illərdə panislamizmi təmsil edən yalnız bir partiya - Qafqaz İttihad Firqəsi fəaliyyət göstərirdi. Onun ideoloji əsasını o dövrün ittihadi-islam, islam modernizmi, islam reformizmi kimi populyar nəzəriyyələr təşkil edirdi. Partiyanın nümayəndələri 1918-ci ilin 28 mayında Azərbaycan istiqlaliyyətini elan edən Milli Şuranın üzvləri olmuşlar.

Beləliklə, XIX əsrin sonları və XX əsrin əvvəllərində istər Şimali, istərsə də Cənubi Qafqazda və onun tərkib hissəsi olan Azərbaycanda panislamizm ideyaları geniş yayılmışdı. Bu ideyaların milli özünüdərk və milli dəyərlərin qorunmasında böyük rolu olmuşdur. Belə hesab etmək olar ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində panislamizm ideyaları Qafqazdakı bütün partiyaların fikirlərinə və mövqelərinə ciddi təsir etmişdir. Sovet tarixçiləri panislamizmi

---

[45] Усманова, Д.М. Мусульманская фракция и проблемы «свободы совести» в Государственной думе России (1906-1917) / Д.М.Усманова. – Казань: Мастер Лайн. – 1999. – с. 32–37.

[46] Şəlalə Göytürk. "Difai fədailəri"nin anlatdıqları və xatırlatdıqları // 525-ci qəzet. – 2018, 4 sentyabr. – s. 8.

feodal din adamlarının ideologiyası kimi təqdim edirdilər. Halbuki, panislamizmin feodalizmlə əlaqəsi yox idi, çünki bu ideologiyanın təsisçisi feodal aristokratiya deyil, XIX əsrin ikinci yarısında meydana gəlmiş yeni müsəlman ziyalılar idilər. Panislamizm müsəlman xalqlarının qarşılaşdıqları bir sıra problemləri həll etməyə çalışırdı: mədəni inkişafa nail olmaq, təhsildə uzunmüddətli islahatları həyata keçirmək, ənənəvi həyat tərzini modernləşdirmək, müstəmləkə boyunduruğundan qurtulmaq onun əsas ideyaları sırasına daxil idi. Sonralar məhəlli millətçilik və regional muxtariyyət ideyaları panislamizm ideyalarını əhəmiyyətli dərəcədə üstələmiş oldu və həmin ideyalar əsasında bir sıra dövlətlər quruldu. Ancaq bütün bunlara baxmayaraq, Qafqazda panislamizm elementləri hətta millətçi hərəkatların proqramlarında mövcud olmuşdur.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə edilmiş aşağıdakı əsas nəticələr sistemləşdirilmiş və ümumiləşdirilmişdir:

1. Çar Rusiyasının Qafqaza müdaxiləsi təqribən yüz il davam edən, geniş coğrafi ərazini əhatə edən, xalqların ağır itkiləri ilə müşayiət olunan ən uzunmüddətli hərbi münaqişə kimi tarixə "Qafqaz müharibəsi" olaraq yazılmışdır. XIX əsrin sonlarına qədər davam edən silahlı münaqişə XX əsrin əvvəllərində öz təsiri ilə bir çox problemlərə səbəb olmuşdur. Tarixşünaslıqda Qafqaz müharibəsində üç əsas siyasi rəqibin mövqeyini əks etdirən üç istiqamət diqqəti çəkir: Rus imperiyası, Qərb və müsəlman müqavimətinin tərəfdarları. Bu elmi nəzəriyyələr tarix elmində müharibənin siyasi izahını və mövqelərin təfsirlərini müəyyənləşdirir.

2. Rus imperiyasının tarixi ənənələri bəzi inqilabaqədərki rus və müasir tarixçilərin əsərləri ilə təmsil olunur. Bu ənənələr mənbəyini general D.İ.Romanovskinin mühazirələrindən (1917) alır. Nikolay Ryazanovskinin "Rusiyanın tarixi" kitabı və ingilis dilində nəşr edilmiş "Rus və sovet tarixi ensiklopediyası"nın (J.L.Vişhinski tərəfindən redaktə edilmiş) müəllifləri də bu tendensiyanın tərəfdarı olmuşlar. Eyni ənənəyə Rostislav Fadeyevin əsəri də aid edilə bilər. Bu əsərlərdə tez-tez Qafqazın tabe edilməsi Qafqaz "vəhşilərinin" tabe edilməsi kimi təqdim edilir. 1830-cu illərin sonu - 1840-cı illərin əvvəllərində imam Şamil və onun tərəfdarları xarici kəşfiyyat xidmətlərinin agentləri hesab olunurdular. Bu versiyaya uyğun

olaraq, Şamilin uzunmüddətli müqaviməti Türkiyə və İngiltərənin köməyi ilə davam etmişdir. 1850-ci illərin sonundan 1880-ci illərin birinci yarısına qədər bütün tayfaların rus dövlətinə istisnasız və könüllü şəkildə daxil olduqları vurğulanırdı. Mark Bliyev və Vladimir Deqoyevin 1994-cü ildə nəşr olunmuş "Qafqaz müharibəsi" adlı kitabında Şimali Qafqaz və Rusiya tarixçiləri və etnoqraflarının əksəriyyəti kitabda dağlı basqınlarının iqtisadi, siyasi, sosial nəticələrini daha çox önə çəkməyə çalışmışlar.[47]

Qərb tarixşünaslığında Rusiya öz ərazilərini genişləndirmək istəyən bir vəhşi kimi təqdim edilir. Təbii ki, məsələnin bu cür təqdim edilməsində həqiqət payı çoxdur. Ancaq eyni yanaşma Qərb dövlətləri tərəfindən Hindistanda və eləcə də Afrikada tətbiq edilmişdir.[48]

3. 1920-ci illər və 1930-cu illərin birinci yarısında ilk sovet tarixçiliyində (Mixail Pokrovski məktəbi) dağlıların müqaviməti milli azadlıq hərəkatı kimi qiymətləndirilmiş, qonşularına basqınları coğrafi amil kimi izah edilimişdir.[49] Rusiyanın bu müharibədəki itkiləri təxminən yarım milyona yaxın olmuşdur. Heç kim dağlıların itkilərini dəqiq saya bilməmişdir, lakin bəzi hesablamalara görə, yalnız Çeçenistanda əhalinin sayı təqribən bir milyon azalmışdır.

4. Rusiya Qafqazı işğal edərkən bir çox yerli müsəlman xalqlarına qarşı soyqırım və diskriminasiya siyasətini həyata keçirmişdir. Azərbaycan türklərinin tarixi vətəni iki yerə bölündükdən sonra Rusiya yerli müttəfiqi kimi ermənilərin bölgədə məskunlaşdırılmasına başlamışdır. Ermənilər də öz növbəsində Rusiyanın regional maraqlarının reallaşmasından istifadə etməyə çalışmışlar. Rusiya regionda xristianlaşdırmanı iki yolla, texniki və ideoloji vasitələrlə, həyata keçirirdi. Birinci vasitə bölgəyə xristian xalqlarının köçürülməsi idi. Ermənilər tarixi Azərbaycan torpaqlarına, kazaklar və slavyanlar qismən yenə bura, ən çoxu isə Şimali Qafqaz xalqlarının torpaqlarına köçürülürdü. Rusiya Qafqazda islam siyasətini həyata keçirərkən İran və Osmanlı amilini daim nəzərə alır, istər Şimali,

---

[47] Кавказ и Российская империя: проекты, идеи, иллюзии и реальность. Начало XIX - начало XX вв. – СПб., – 2005. – с.74.
[48] Блиев, М.М. Кавказская война / М.М.Блиев, В.В.Дегоев. – Москва: Росет, – 1994. – 592 с.
[49] Олейников, Д.И. Большая война // – Москва: Родина, – 2000. №1, – с.50-57.

istərsə də Cənubi Qafqazda müsəlman əhalisnin sayının azaldılmasına, Qafqaz ruhanilərinin müsəlman ölkələri ilə əlaqələrinin və əhalinin dini hüquqlarının məhdudlaşdırılmasına çalışırdı.

İdeoloji vasitə isə dini təbliğatla sıx bağlı olmuşdur. Rusiyanın hakimiyyət dairələri aydın başa düşürdülər ki, bölgə ancaq süngünün gücü ilə deyil, xristianlığın tətbiq olunması yolu ilə idarə edilə bilər. Buna görə də XVIII əsrin sonlarında Tiflisdə Osetiya Ruhani Komissiyası yaradılmış və onun əsas vəzifəsi Qafqaz müsəlmanları arasında xristianlığın yayılması olmuşdur. İlkin mərhələdə qeyri-pravoslav dini missionerlər Qafqazda missionerlik fəaliyyəti ilə məşğul olurdular. Şotland Missioner Cəmiyyəti, İsveçrədən Bazel İncil Cəmiyyəti və Britaniya Qeyri-Xristianların İncil Yayma Cəmiyyəti xüsusi fəallığı ilə seçilirdi. Lakin Qafqaz xalqları imperiyanın xristianlaşdırma siyasətinə tabe olmamışlar. Qafqaz xalqlarının islama olan bağlılığı Rusiya imperiyasının Qərbdən gələn protestant xristianların imkanlarından istifadə etməklə və daha sonra pravoslavlığı təbliğ etməklə müsəlman xalqları xristianlaşdırmaq səylərini heçə endirmiş oldu: Qafqazın müsəlman xalqlarından heç biri kütləvi şəkildə öz dinindən dönmədi.

5. İstəklərinə nail ola bilməyən Rusiya imperiyası ara-sıra sistemli soyqırımlara imza atmışdır. Adıq-çərkəz xalqının əksəriyyəti məhv edilmiş və ya Osmanlı imperiyasına sürgün edilmişdi. Noqaylar da eyni aqibəti yaşamışlar. Cənubi Qafqazdan İrəvan və Naxçıvandan xeyli sayda əhali öz doğma torpaqlarını tərk edərək İrana və Osmanlıya üz tutmalı olmuş, Azərbaycan torpaqlarında Gəncə və Car-Balakən qətliamları törədilmişdir.

6. XVIII əsrdən etibarən Qafqazda yerləşdirilən ruslar region əhalisinin etno-konfessional strukturunda yeni bir elementə çevrilmişdilər. XX əsrin əvvəllərində Şimali və Mərkəzi Qafqazda rusların sayı 3.760.000-dən çox idi. Ermənilərin sistemli və ardıcıl şəkildə köçürülməsi Qafqaz əhalisinin etnik tərkibində onların sayının çoxalmasına səbəb olmuşdu. Həmin dövrdə onların sayı 140.000 nəfərdən çox olmuş və onlar əsasən Azərbaycanın tarixi torpaqlarında – Bakı, Yelizavetpol və İrəvan əyalətlərində yerləşdirilmişlər. Rusiya yalnız 1864-cü ildə Qafqaz xalqlarının ümumi müqavimətinin qarşısını ala bilmiş, Kuban ətrafında yaşayan 470 min çərkəz sürgün edilmişdir. XIX əsr ərzində miqrasiya dalğaları Avropa xalqlarının

regionda sayının tədricən artmasına gətirib çıxarmış, xüsusən XX əsrin əvvəllərində Qafqazdakı slavyan xalqlarının, həmçinin polyaklar, çexlər və bolqarların sayı xeyli dərəcədə artmışdır. Yerli əhalinin azaldılması fiziki məhv, kəndlərin işğalı və yandırılması, əkin sahələri və bitkilərin məhv edilməsi, ərzaq təchizatının dayandırılması yolu ilə həyata keçirilmişdir. Bütün mənfi tərəfləri ilə yanaşı, Qafqaz xalqlarının mühacir hərəkatı bölgənin müsəlman xalqları arasında fikir birliyi formalaşdırmış, Osmanlı imperiyası daxili münaqişələr, xarici müdaxilələr, saray intriqaları şəraitində olsa da, məhdud imkanlarını səfərbər edərək yenə də bölgənin müsəlman xalqlarına öz yardım əlini uzada bilmişdir.

7. Yeni ərazilərin imperiyaya inteqrasiya prosesi asan olmamış və bir sıra müvafiq qərarların qəbul edilməsinə ehtiyac yaranmışdır. Qafqaz müsəlmanlarının idarə edilməsinin təşkili ilə bağlı ilk qanunvericilik aktı 1805-ci il iyunun 30-da imperator I Aleksandrın “Yelizavetopol dairəsində Məhəmmədi din xadimlərinin qaydaları haqqında” adlı fərmanı olmuş, Rusiyada mövcud olan müftilik modelləri əsasında Zaqafqaziya Sünni Məhəmmədi Ruhani Şurası və Zaqafqaziya Şiə Məhəmmədi Ruhani Şurası yaradılmışdır. Qafqazı işğal etdikdən sonra müsəlman əhaliyə qarşı qərəzli siyasət yürüdən Rusiya hər vəchlə müsəlmanların xristianlaşdırılması üçün cəhdlər etsə də, bu siyasət gözlənilən nəticəni verməmiş, əksinə, Qafqaz xalqlarını öz dinlərinə daha möhkəm bağlamışdır.

8. Rusiyanın Qafqaz siyasətinin formalaşmasına müridizm hərəkatı ciddi şəkildə təsir göstərmişdir. Bu hərəkat islami ideyalar ətrafında Qafqaz xalqlarının ruslara qarşı müqavimətinin bir nümunəsi kimi tarixə yazılmışdır. Onun Qafqaz xalqlarının özünüdərkinə, eləcə də bütün zülmlərə baxmayaraq öz dinlərini, dini dəyərlərini qoruyub saxlamalarına böyük müsbət təsiri olmuşdur.

9. Rusiya müsəlmanlarının mütəşəkkil fəaliyyətlərinin təmin edilməsində panislamizm hərəkatının da xüsusi rolu olmuşdur. Cəmaləddin Əfqaninin fikirləri bütün Şərqdə geniş yayılmış və siyasi panislamizmin təşkilatlanmasına əhəmiyyətli dərəcədə təkan vermişdir. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində istər Şimali, istərsə də Cənubi Qafqazda və onun tərkib hissəsi olan Azərbaycanda panislamizm ideyaları geniş yayılmış, milli özünüdərk və milli dəyərlərin qorunmasında böyük rol oynamışdır.

Tədqiqatın nəticələrini yekunlaşdıraraq qeyd edə bilərik ki, çar Rusiyasının Qafqazda islam siyasəti üsullar baxımından dəyişsə də, mahiyyət etibarilə imperialist, müstəmləkəçi xarakterə malik olmuşdur.

**Dissertasiyanın əsas müddəaları və əldə edilmiş nəticələr müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Rusiyanın işğalından sonra Qafqazda dini siyasətin bəzi aspektləri // – Bakı: Sivilizasiya. Elmi-nəzəri jurnal. Bakı Avrasiya Universiteti, – 2019. №1 (41), – s. 75-82.
2. Влияние ислама на социокультурные структуры кавказских народов в XIX веке // ВГО УАН, Видавництво «Гілея». – Київ: Національний педагогічний університет імені М. П. Драгоманова. – 2019. – випуск 141. № 2, ч. 2, – с.35-39.
3. Şimali Qafqazda islamın inkişaf mərhələlərinin təsviri izahı // – Bakı: Geostrategiya. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. – 2020. №2 (56), – s.118-124.
4. XIX əsrin sonu - XX əsrin əvvəllərində panislamizm və onun Qafqazda yayılması // – Bakı: Geostrategiya. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. – 2020. №3/4 (57-58), – s. 88-94.
5. Müridizm hərəkatı və onun güclənməsində İmam Şamilin rolu // – Bakı: “Din araşdırmaları” jurnalı. Azərbaycan İlahiyyat İnstitutu, –2020. №2 (5), – s. 129-143.
6. Ermənilərin Cənubi Qafqaza köçürülməsi // “Azərbaycan Xalq Cumhuriyyəti tarixi tədqiqatlarda” mövzusunda Respublika elmi konfransının materialları, – Bakı: BDU, – 2021, – s. 81-85.
7. Колониальная политика царской России в отношении ногайского народа // Нові дослідження пам’яток козацької доби в Україні. Збірник наукових статей. Присвячується 30-річчю проголошення Незалежності України, Ніжин. – 2021, – с. 425-428.
8. Rusların və almanların Cənubi Qafqaza köçürülməsi // Dövlət suverenliyinin möhkəmləndirilməsi yolunda sosial və humanitar problemlərin həlli xüsusiyyətləri. Gənc tədqiqatçıların Respublika elmi-praktik konfransının materialları, – Bakı: BDU, – 20 oktyabr 2021-ci il, – s.114-119.

Dissertasiyanın müdafiəsi "28" iyun 2024-cü il tarixində saat 16:00 - da Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 4.03 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı şəhəri, Yasamal rayonu Məhəmməd Naxçıvani küçəsi 29, AZ1065
Tel: 012 436 77 66
E-mail: info@ait.edu.az

Dissertasiya ilə Azərbaycan İlahiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan İlahiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "27" may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.05.2024
Kağız formatı: $60{\times}84^{1/16}$
Həcm: 46087
Tiraj: 100